**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 108 (1476) 10 iyun - 12 iyun 2017-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ



# El sənəti: Əcəmi seyrangahında bir emalatxana var

**(əvvəli ötən sayımızda)**

**Rud, ud, bərbəd aləti klassik şairlərimizin şeirlərində adı çəkilən alətlər olublar. Nizami Gəncəvinin ”İsgəndərnamə” əsərində rud aləti belə vəsf olunur:**

Müğənni çal rudu gəl dadıma çat,
Məni bu amansız yuxudan oyat.
Bəlkə rudun səsi axar çay kimi,
Dincəltsin susamış, yanar qəlbimi.

Mən də klassik şairlərin əsərlərində adı çəkilən alətlərin hazırlanmasına diqqət edirəm. Yeni bir musiqi aləti olan səntur düzəltmişəm. Səntur qədim alətdir. Şərq ölkələrində istifadə olunur. Davud peyğəmbərdən qalma bir alət kimi göstərilir. Bu alət bir çox ölkələrdə geniş yayılıb. Trapesiya şəkillidir.



Mən bunu buta şəklinə salmışam ki, sırf Azərbaycan sənturu olsun. Səntur çox gözəl səsə malikdir. Naxçıvan tənburu da düzəltmişəm.

Naxçıvan Musiqi Kollecinin tələbələri ondan istifadə edirlər. Alətin bir tərəfi saz, bir tərəfi tənbur, bir tərəfi cəngdir. Rəmzi bir məna daşıyır. Saz, tənbur və cəng ümumtürk dünyasında istifadə olunan musiqi alətləridir. Alətdə otuzdan artıq aşıq var. Birdə görürsən ki, aləti bilməyənlər sorusur. Bu üç aləti necə ifa edirsən? Deyirəm ki, burada milliliyimizi, dəyərlərimizi bildirmişəm, bu təkcə çalğı üçün deyil. Çoxlu eskizlərim var. Gələcəkdə onların üzərində işləyəcəm.

Ulu Naxçıvanımız çox qonaqlı-qaralı olur. Böyük əhəmiyyətə malik festivalların, konfransların və yaddaqalan tədbirlərin keçirilməsi tursitlərin bura axınını sürətləndirir.

Gələn qonaqlar Əcəmi seyrangahına üz tutur. Ilin bu vədəsində bir başqa aləmdir Əcəmi seyrangahı. Ulu torpağımızın, yurdumuzun xoşbəxtliyidir ki, belə bir dahi yetirib. Belə dahilər bir deyil, beş deyil, onlarla olub. Hər biri də öz əməli, amalı ilə zaman və məkan çərçivəsinə sığmayıb. Əsrlərin yol yoldaşı, nəsillərin örnək timsalına çevrilib. Əbədiyyət yolçusu olan Əcəmi Naxçıvan memarlıq məktəbinin banisi, Şərqin böyük memarıdır.

Onun günümüzədək gəlib çatan nadir memarlıq inciləri Əcəmi haqqında çox həqiqətlər söyləyir. Bu naxçıvanlı dahinin əsərləri solmayan gözəlliyi, əskilməyən əzəməti ilə onun dahi memar olduğunu təsdiqləyir.

Əcəminin bu gün Şərqin ən nadir klassik memarlıq nümunələri sırasında duran ”Mömünə xatun” türbəsi 1186-cı ildə inşa olunub. Ən layiqli qiymətini də ümummilli lider Heydər Əliyev verib: ”Mömünə Xatun məqbərəsi Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, böyük memarlıq məktəbi olduğunu göstərir”.

Əlbəttə buranı ziyarətə gələn turistlər həm də musiqi alətlərinə maraq göstərir və mənim çalışdığım emalatxanaya gəlirlər. Günəşin zərrin şüalarının altında bərq vuran ”Mömünə Xatun” məqbərəsinin üzərindəki milli ornamentlər bizim kimliyimizi, qədimliyimizi bir daha təsdiqləyir. O ornamentlərin bəzilərindən mən də musiqi alətlərində istifadə edirəm. Və məqbərənin üzərində memarın öz əlləri ilə həkk etdiyi bu sözlər həyatın su kimi axdığından xəbər verir.

Biz gedirik, ancaq qalır ruzigar,
Biz gedirik, əsər qalır yadigar.

Mən də öz növbəmdə çalışıram ki, milli dəyərlərimizi, musiqimizi gələn qonaqlara təbliğ edim. Ölkəmizin mədəniyyəti, musiqi alətləri onlarda yaxşı rəy yaratsın deyə . Birdən təbim coşa gələndə sazda, tənburda, ovuc neyində onlar üçün xalq mahnılarımızı ifa edirəm. Bir də baxıram ki, xeyli sayda qonaqlar düzülüblər qapının önünə. Alətin səsi onları elə sehrləyib ki, ayrıla bilmirlər.

Bəli, musiqi alətləri mədəni irsimizdir. Onları qorumaqla, gələcək nəsillərə çatdırmaqla yanaşı Amerika, Yaponiya, Avropa ölkələrindən gələn qonaqlara Azərbaycan ladlarını elmi şəkildə təbliğ edirəm.

Emalatxanamız bir növ muzey kimi fəaliyyət göstərir. Şəhərimizin sakinləri və qonaqları həm alətlərə baxırlar, həm də ifa etməyimə qulaq asırlar. Qədim musiqi alətlərinin istehsalı və təmiri ilə məndən başqa bir nəfər də məşğul olub. O xalq artisti, mərhum sənətkar Məcnun Kərimov idi. Qeyd edim ki, musiqi alətlərinin bərpası başqa şeydir, hansısa bir ustanın tar, kamança, saz düzəltməyi bir başqa şey. Biri var bütün alətlərin hamısına nəzarət edəsən, saxlayıb qoruyasan, biri də var ehtiyac olan aləti düzəldəsən.

Məndə çalışıram ki, musiqi alətlərini bərpa edib gələcək nəsillərə çatdıram. İşimə daim dövlət qayğısı göstərilib.

Əməyim yüksək qiymətləndirilib. 1 mart 2014-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə ”Muxtar Respublikaya xidmətlərinə görə” nişanı ilə təltif olunmuşam. Bu ilin may ayında isə Prezident mükafatına layiq görülmüşəm. Mən aldığım mükafatı alət düzəltməyə sərf edəcəm. Çünki ehtiyac var bu alətlərə.

Özümü onlarsız təsəvvür edə bilmirəm. Yorulanda dincimi almaq üçün hazırladığım alətlərə baxıram. ”Iş insanın cövhəridir”, ”Əmək insanı ucaldır”, deyib aqillərimiz. Xalq qarşısında ucalmağım, dövlət qayğısı ilə əhatə olunmağım zəhmətim hesabına olub. Odur ki, hər bir insan işinə səylə yanaşsa, vətəndaşlıq mövqeyi nümayiş etdirsə, bəhrəsini görər.

Davamçılarım çoxdur. Yəqin ki, gələcəkdə onların arasından bu sənəti davam etdirənlər olacaq. Buna əminəm.

**Bu yerdə Aristotelin müdrik bir kəlamını xatırlamaq olur: ”Ulu Tanrı tərəfindən seçilənlər-dərin zəkası, sənətinə tükənməz məhəbbəti, istedadı və bacarığı ilə öz xalqını ucaldanlar onunla birgə ucalır, onunla birgə yaşayırlar ”.**

***Adilə Səfərova***
***Əməkdar mədəniyyət işçisi***